# AZƏRBAYCAN, POLŞA VƏ ABŞ ALİ KİTABXANAÇILIQ TƏHSİLİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

A.İ.QURBANOV
*Bakı Dövlət Universiteti*
N.Z.HÜSEYNOVA
*Bakı Dövlət Universiteti*

*Məqalədə Azərbaycanda Kitabxanaçılıq təhsilinin tarixi təhlil olunmuş, Amerika və Polşadakı kitabxanaçılıq təhsilinin oxşar və fərqli cəhətləri araşdırılmışdır.*

***Açar sözlər:*** *kitabxanaçılıq təhsili, kitabxana-informasiya xidməti, ali kitabxanaçılıq məktəbi.*

Azərbaycanda kitabxanaçılıq təhsilinin əsası 1947-1948-ci tədris ilində Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin nəzdində qoyulmuşdur. 1962-ci ildə Azərbaycanda müasir sosial, siyasi və mədəni həyatın nəbzini dərin həssaslıqla tutan, tanınmış kitabxanaçı, Fakültənin yaranmasında Azərbaycan Respublikasının əməkdar elm xadimi, əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, Azərbaycan Kitabxanaçılıq Cəmiyyətinin prezidenti, kitabxanaçılıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor A.A.Xələfovun səyi nəticəsində kitabxanaçılıq ixtisası müstəqil fakültə olaraq fəaliyyətinə başladı.

Bakı Dövlət Universitetinin Kitabxanaçılıq və İnformasiya Fakültəsi hər il bakalavr dərəcəsi ilə 100 tələbəni yüksək səviyyədə kitabxanaçı olaraq yetişdirməkdədir. Fakültədə magistr və doktorantura pilləsində Azərbaycanlı tələbələrlə yanaşı xarici tələbələr də təhsil alır.

Hal-hazırda fakültədə 4 ixtisas kafedrası fəaliyyət göstərir: kitabxanaçılıq, biblioqrafiyaşünaslıq, kitabxana resursları və informasiya - axtarış sistemləri, kitabşünaslıq və nəşriyyat işi kafedraları. Həmçinin iki istiqamət, - kitabxanaşünaslıq-informasiya və kitabşünaslıq üzrə ali təhsilli kadrlar hazırlanır.

Ölkə miqyasında kitabxanaçı kadrların hazırlanması və təkmilləşməsinin normativ, təşkilati və elmi-metodiki əsaslarının yenidən qurulma prosesi başlamışdır. Bu prosesin davamı olaraq hal-hazırda "Kitabxana-informasiya resursları" istiqaməti üzrə kadr hazırlanır. Bir sözlə, yeni nəslin ali peşəkar kitabxana təhsilinin standartları yaradılmış, onun proqram, informasiya və texniki təminatı təkmilləşdirilmişdir.

Fakültədə "Kitabxanaşünaslıq", "Biblioqrafiyaşünaslıq", "Kitabxana resursları və informasiya-axtarış sistemləri" və "Kitabşünaslıq" kimi 4 dərnəyi özündə birləşdirən Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərir.

Son illər kitabxana işində aparılan dinamik islahatlar kitabxanaların müasir cəmiyyətin həyatında rolunun yüksəlməsinə səbəb olmuşdur. Azərbaycanda kitabxanaçılıq təhsili sahəsində digər ölkələrin təcrübələrindən istifadə bu sahədə yeni nailiyyətlərin əldə edilməsinə geniş imkanlar yaratmışdır. Bu cəhətdən Qərb ölkələrində, xüsusilə Polşada, o cümlədən Amerikada kitabxanaçılıq təhsilinin Azərbaycandakı kitabxanaçılıq təhsili ilə oxşar və fərqli cəhətlərini nəzərdən keçirə bilərik.

Amerikada kitabxanaçılıq təhsilini Amerika ədəbiyyatından, eləcə də sovet və xarici ədəbiyyatlardan öyrənmək mümkündür.

1979-cu ildə Kitabxana və informasiya xidmətləri ilə əlaqədar Ağ Evdə keçirilən Konfransda kitabxanaçı mütəxəssislərdən təşkil olunmuş qrupun tövsiyələri dinlənildi və dəyərləndirildi. Və nəticədə kitabxanaçılıq təhsilinə müsbət təsirlər göstərəcəyinə inanılan qərarlar verildi. Bu qərarlar içərisində 1.Ümumi xəbərlər 2. istifadəçinin istiqamətləndirdiyi kitabxana xidmətləri 3. mənbə paylaşımı 4. gücləndirilən mexanizmlər 5. tədqiqat ehtiyacları kimi müddəalar öz əksini tapırdı.

1987-ci ilin sentyabrında Amerika prezidenti Konqress kitabxanasının direktoru təyin etdi. Və nəticədə bu vəzifəni görkəmli alim, tarixçi professor Jeyms Billinqton icra etməyə başladı.

XXI əsrdə Amerika Birləşmiş Ştatlarında artıq bir sıra kitabxanaçılıq məktəbləri yaranmağa başlamışdı. Kitabxanaçılıq məktəbləri hətta onlar kollec adlandırılsalar belə universitetlərin tərkibində fəaliyyət göstərirdi. Daha sonralar isə bir sıra ali təhsil müəssisələrində bakalavr səviyyəsində kitabxanaçılıq-informasiya ixtisası üzrə kitabxanaçı kadrlar hazırlanmağa başlamışdı. Bakalavr təhsilinə yiyələndikdən sonra magistr dərəcəsi almaq o qədər də çətin hesab olunmurdu. İki ildən ibarət olan magistr proqramı kitabxanaçılığa dair müxtəlif ixtisaslar üzrə təhsil verirdi.

Amerikada kitabxanaçılıq-informasiya təhsili daima inkişaf edib təkmilləşməkdədir. Kitabxana informasiya məktəbləri Amerika Kitabxana Assosiasiyası ilə razılaşma əldə etmiş, 56 kitabxanaçılıq məktəbi (onlardan 48-i Amerikada yerləşir) bu assosiasiyanın qeydiyyatından keçmişdi.

Assosiasiyanın statistik hesabatına əsasən kitabxanaçılıq məktəblərində kitabxana-informasiya təhsilinə yiyələnən tələbələrin sayı 2001-ci ildə 1991-ci illə müqayisədə 44,6% artmışdı.

Bu dövrdə Kaliforniya Universitetinin nəzdində fəaliyyət göstərən İnformasiya Tədqiqatları məktəbində (digər şəhərlərdə yerləşən filialları daxil olmaqla) kitabxanaçılıq ixtisası üzrə təxminən 200 nəfər magistr və doktorantura pilləsi üzrə təhsil almaqda idi.





Universitetlərdə və kitabxanaçılıq məktəblərində aparılan tədris prosesi tamamilə avtomatlaşdırılmış sistemdən ibarət idi. İnformasiya tədqiqatları məktəbində yalnız xüsusi tədris korpusunda təhsil alan tələbələr 50 kompüterlə təchiz olunmuşdu.

Qeyd etdiklərimizdən belə bir nəticəyə gəlmək olar ki, uzun müddətli fasiləsiz təhsilə əsaslanan Amerikadakı kitabxanaçılıq təhsili qiymətlərin çox yüksək olmasına görə bir çox ölkələrin, eləcə də Azərbaycandakı kitabxanaçılıq təhsili ilə müqayisə edilməsi çətindir. Ancaq ABŞ-da kitabxana-informasiya təhsilinin çox xüsusiyyətləri bir çox ölkələrin ali məktəblərində öyrənilməsi və onların tətbiqinin imkanı nöqteyi-nəzərindən diqqətli analizə layiqdirlər.

Polşada isə radikal ictimai-iqtisadi islahatlar şəraitində humanitar təhsilin yeni modeli işlənməkdədir.

Bu modelin ən əhəmiyyətli xüsusiyyətlərinə peşəkar-maarifləndirici proqramların adekvatlığı, akademik portativlik, məzmunun fasiləsiz yenilənməsi, formalar və peşəkar təhsil metodların və onun dünya təhsil sisteminə inteqrasiyasını daxil etmək olar.

Müasir avropa inteqrasiya prosesləri ali humanitar təhsil sahəsinə yeni istiqamətlər və təlim proqramları aşılayır.

Bu innovasiyaların nəticələri müxtəlif ölkələrdə ali peşə məktəblərinin metodologiyasını və perspektivlərini zənginləşdirməkdədir.

Rusiya Federasiyasında kitabxanaçı kadrların hazırlığının təkmilləşdirilməsi prosesində mütəxəssislər başqa dövlətlərdə, xüsusilə Şərqi Avropa ölkələrində kitabxana işçilərinin təhsil sisteminə böyük maraq göstərirlər.

Son illər ərzində Polşada Kitab və oxuma (чтения) institutu və Milli Kitabxana ölkədə kitabxana işinin müxtəlif aspektlərdə həyata keçirilməsini təmin etməkdədir.

Polşa kitabxanalarında və informasiya müəssisələrində aparılan sistemli elmi tədqiqatlar tez-tez kadr potensialının artırılmasına müsbət təsir göstərir.

Müasir dövrdə Polşada dinamik ictimai-iqtisadi dəyişikliklər şəraitində kitabxanaçılıq təhsili yalnız tədris planlarının və proqramların ənənəvi variantlarının istifadə olunması ilə məhdudlaşdırıla bilməz.

Bu dəyişikliklərin geniş miqyaslı olması ali kitabxanaçılıq məktəbinin şəxsiyyətin peşəkarlığının formalaşmasına əvvəlki illərdən fərqli olaraq daha geniş imkan yaratdığını ortaya qoyur. Polşada ali kitabxanaçılıq təhsilinin inkişaf mərhələlərinin dərk edilməsi, müasir vəziyyətin analizi və perspektivli tendensiyaların seçilməsi Rusiyada da ixtisaslaşdırılmış kitabxana-informasiya kadrlarının hazırlığında və müsbət təcrübəni aşkar etməyə icazə verəcəkdir.

Polşanın Ali təhsil müəssisələrində Kitabxanaçılıq təhsili sistemli şəkildə olaraq ilk dəfə 1945-ci ildən tədris olunmağa başlamışdı. Lakin

Kitabxana işi üzrə ilk kafedranın yaranması Polşa Xalq Maarifi dövrünə təsadüf edir. Polşada təhsilin inkişafında və artırılmasında Təhsil komissiyası böyük rol oynamışdır.

Kitabxanaçılıq işi hələ 1971-ci ildən Xalq maarifi komissiyasının fəaliyyətinə daxil edilmişdir. Bu komissiyanın layihəsinə əsasən kitabxana işinə dair mühazirələr kitabxanaçılıq üzrə mütəxəssislər tərəfindən tarix və filologiya fakültələrində təhsil alan tələbələrə oxunmalı idi.

Polşada kitabxana işinin təşkili kitabxanaçı kadrların potensialından asılı idi. Ümumiyyətlə isə Polşada son illər ali məktəblərdə təhsil prosesinin fərdiləşdirilməsinə dair innovativ yanaşmalar işlənir və bu da gələcək mütəxəssislərin baza elmi və peşəkar hazırlığını əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa icazə verəcək.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A. Azərbaycanda ali kitabxanaçılıq təhsili: (1947-1997-ci illər). – B.:BDU, 1998. – 126 s.*

2. *Халафов А.А. Развитие библиотечного образования в Азербайджане //Подготовка библиотечных кадров в Азербайджане (тематический сборник научных трудов).Б.: АГУ, 1987. – С.3-18.*

3. *Xələfov A.A, Müstəqillik illərində ali kitabxanaçılıq təhsilinin inkişafı // Kitabxanaşünaslıq və biblioqrafiya. – 2009. - №2. S.28-47.*

4. *Qurbanov A. Kazımi P. (2012). Azərbaycan kitabxanaşünaslığı prof. A.A.Xələfovun elmi məktəbi kimi. Ukrayna, Kiyev: Библиотечный форум.*

5. *Qurbanov A, Kazımi P. Azerbeycanda kütüphanecilik eğitimi: Kısa bir tarihçe// Türk Kütüphanecili i 27, 4 (2013), 648-650 s.*

6. *http://www.gpntb.ru*

7. *http://libedu.narod.ru*

8. *http://www.dissercat.com*

## COMPARATIVE ANALYSIS OF HIGHER LIBRARY EDUCATION IN AZERBAIJAN, POLAND AND THE UNITED STATES

**A.I.QURBANOV**
**N.Z.HUSEYNOVA**

***SUMMARY***

*The article analyzed the history of the library science education in Azerbaijan, investigated library science education similarities and differences.in the United States and Poland.*